# *Ceyhun BAYRAMOV:* "Azərbaycan və Türkiyə arasında münasibətlər əhatə dairəsinə görə geniş, məzmunca zəngindir "

**"Azərbaycan Türkiyə münasibətləri liderlərimizin vizyonu ilə, tarixi Şuşa Bəyannaməsinin imzalanması ilə müttəfiqlik səviyyəsinə yüksəlib".**



AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə birgə keçirdiyi mətbuat konfransında səsləndirən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib ki, iki ölkə arasında münasibətlər əhatə dairəsinə görə geniş, məzmunca zəngindir. O, həmkarı ilə dünən keçirdiyi görüşdən də bəhs edib: "Ölkələrimiz arasında bir sıra layihələr uğurla icra edilir. Azərbaycanda fəaliyyət göstərən Türkiyə şirkətlərinin sayı 4 minə yaxındır. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə Azərbaycanla yanaşı, Türkiyə şirkətləri də fəaliyyət göstərir".

Nazir C.Bayramovun fikrincə, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürmə qabiliyyətinin ötən il genişləndirilməsi layihəsinin başa çatdırılması, Bakı Dəniz Limanının imkanlarının artırılması Orta dəhlizin daha böyük potensialla çalışması üçün ciddi əsas yaradır.

Nazir daha sonra bildirib ki, tarixi Şuşa Bəyannaməsinin imzalanmasından təxminən 3 il sonra eyni məkanda Qarabağ Bəyannaməsinin imzalanması xüsusi əhəmiyyət daşıyır. "Bu gün orada qəbul olunmuş qərarların icrası istiqamətində də müzakirələr apardıq".

Suriyada Azərbaycan səfirliyinin fəaliyyətinin ən qısa zamanda bərpa ediləcəyini vurğulayan nazir onu da əlavə edib ki, 2012-ci ildən bəri Azərbaycanın Suriyada heç bir diplomatik fəaliyyəti olmayıb: "Lakin qısa müddət öncə Azərbaycan nümayəndə heyəti Suriyaya səfər edib, Suriyanın xarici işlər naziri və digər aidiyyəti şəxslərlə görüşlər keçirib. Bu görüşlərdə Azərbaycanın oradakı diplomatik missiyasının bərpası ilə bağlı niyyəti ifadə olunub".

Azərbaycan. - 2025.- 19 yanvar (№ 12).- S.2.